Şəhidlər ölməzdir!

# “Sizi kim unudar...”

**Hörmətli oxucu, bu sərlövhə Əməkdar jurnalist İlqar Rüstəmovun Qarabağ müharibəsinin 12 şəhidi, 1 qazisi və 1 həkimi barədə bu yaxınlarda çapdan çıxmış yeni kitabının adından götürülüb.**




Buradakı hekayətlər doğma torpağının namus və qeyrətini bayraq kimi başının üzərinə qaldıraraq, Vətən yolunda ölümün gözünə dik baxmağı bacaranlar barədədir.

Bu igidlərin sayı bir deyil, iki deyil, beş deyil, yüzlərlə, minlərlədir. Onlar bu yurdun qeyrət və namus qalalarıdır. Məğrur, uca çinarlar kimi bu məmləkətə qürur və şərəf gətirirlər.

Kitabda, əsasən, 44 günlük savaşda qeyri-adi şücaətlər göstərən Lerik və qonşu rayonlardan olan şəhidlərdən bəhs edilir. Onlar bu gün Həzi Aslanovların, Mübariz İbrahimovların, Polad Həşimovların və digər əfsanəvi qəhrəmanların davamçılarıdır!

Şəhidlərdən yazmaq, yüksək məqamlarına ən layiqli düşüncələri dilə gətirmək hər qələm əhlinin gücü çatan iş deyil. Bunun üçün içdən gələn sonsuz bir sevgi və yanğı lazımdır. Bu kitab məhz bu sevgi ilə bələnib!

Buradakı oçerklərin, demək olar ki, hər biri son 3 ildə “Xalq qəzeti”ndə dərc olunaraq ev-ev, şəhər-şəhər, bölgə-bölgə bütün Azərbaycanı dolaşıb. Oxucular bu yazıları hər dəfə oxuyub şəhidlərin hünər və qeyrətinə heyran qalıblar, ruhlarına dualar oxuyublar.

Mən həmkarım İlqar Rüstəmovla eyni redaksiyada qonşu və iç-içə olan otaqlarda çalışıram, gün ərzində dəfələrlə yaradıcılıq ünsiyyətində olur, fikir mübadiləsi edirəm. O, sözü və əməlləri ilə bu xalqa, dövlətə, dövlətçiliyə xidmət edən qələm sahiblərindədir.

Bəli, böyük sevgidən qaynaqlanan hər bir ülvi duyğu pak və gözəl olur. Düşünürəm ki, “Sizi kim unudar...” kitabını oxuyanlar razı qalaraq deyəcəklər: “Layiqli əsərdir. Şəhidlərdən, bax, belə yazmaq lazımdır!”

***Məsaim ABDULLAYEV***
***XQ***